Respublika.- 2018.- 28 aprel.- S.5.

# Görkəmli oftalmoloq Zərifə Əliyevanın xatirəsi yad edildi





**Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyi münasibəti ilə Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində təntənəli tədbirlər keçirilmişdir. Dövlət Sərhəd Xidmətinin qadın hərbi qulluqçuları ənənəvi olaraq Fəxri xiyabanda olmuş, alimin məzarı önünə tər çiçək dəstələri düzmüşlər.**

Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim, ictimai xadim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə tanışlıqdan sonra rəsmi mərasim keçirilmişdir.

Tədbirdə millət vəkili, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi Elmira Axundova minlərlə insanın gözlərinə nur bəxş etmiş istedadlı alim, bacarıqlı pedaqoq Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolu barədə geniş məlumat vermişdir. Qeyd edilmişdir ki, Zərifə xanım elm üçün gözəl tədqiqatçı, ulu öndər Heydər Əliyev üçün ömürgün yoldaşı, sadiq dost, övladları üçün qayğıkeş ana və ən yüksək mənəvi keyfiyyətlərə malik olan nəcib bir xanım idi. Zərifə xanımın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər Azərbaycan tibb elminin parlaq səhifələridir. Onun elmi fəaliyyətinin nəticələri 150-dən artıq əsərdə, 10 monoqrafiyada, həkimlər üçün dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodiki tövsiyələrdə öz əksini tapmışdır. Göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məhşurlaşdırmışdır.

Fundamental elmi tədqiqatları ilə oftalmologiyanın inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın olmuşdur. Akademik Zərifə xanım Əliyeva həm də böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü olmuş, “Əməkdar Elm Xadimi” fəxri adınalayiq görülmüşdür.

Tədbirin sonunda rejissor Vaqif Mustafayevin “Heydər Əliyev. Əsl məhəbbət haqqında” sənədli filmi nümayiş etdirilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**